# Azərbaycan teatrının da təmsil olunduğu II Beynəlxalq Teatr Forumu başa çatıb

**Xəbər verdiyimiz kimi, bu ilin 19-26 noyabr tarixlərində Belarusun Minsk Şəhərində Çexov Teatr Festivalı çərçivəsində "MDB ölkələri, Baltikyanı ölkələr və Gürcüstanın gənc teatr xadimlərinin işlərinə baxış" adı altında Gənclərin II Beynəlxalq Teatr Forumu baş tutub. Forumda Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı "İlahi oyun" tamaşası ilə təmsil olunub. Tədbirdə həmçinin, ölkəmizi teatrşünaslar Elçin Cəfərov və Könül Cəfərova, rejisssor Mikayıl Mikayılov, dramaturqlar İsmayıl İmanov və Nərgiz Bağırzadə, rəssamlar Turan Kərimbəyli təmsil edib.**







Forumda Azərbaycan (Akademik Milli Dram Teatrı "İlahi oyun", Mikayıl Mikayılov), Qazaxıstan (Ş.Kusainov adına Akmolinsk Musiqili-Dram Teatrı "Arzular tramvayı", Bulat Abdraxmanov), Estoniya (Nii Kompaniyası və Yeni Tartu Teatrı "Təmiz idrak/Dişlə məni", Renate Keerd), Ermənistan (Yerevan Dövlət Gənc Tamaşaçılar Teatrı "Bal dadı", Qor Marqaryan), Tacikistan (K.Xudjand adına Tacik Dövlət Musiqili Komediya Teatrı "Müşfikinin gəncliyi", Kurbondjan Babajanov), Ukrayna (Kiyev Akademik Gənclər Teatrı "İnsanların sevgisi", Stanislav Jirkov), Belarus (Moqilevski Kukla Teatrı "Hamlet", İqor Kazakov), Özbəkistan (Özbək Akademik Milli Dram Teatrı "Günəşin doğduğu yerdə", Əsgər Xolmuminov), "Latviya (M.Çexov adına Riqa Rus Teatrı "İndrani", Elmar Senkov), Moldova ("Aclığın uşaqları. Şahidlik" M.Eminesku adına Kişenyov Milli Teatrı, Luminitsa Tsıku), Litva (No Theatre "Kaliqula", Vidas Bareykis), Gürcüstan (Kral Məhəlləsindəki Teatr "Troya qadınları", Data Tavadze), Rusiya (A.A.Savin adına Lısvenskiy Dram Teatrı "Cənnət buludları", Vçeslav Tışuk) teatrları öz tamaşalarını nümayiş etdirib.



Həmçinin, Forum çərçivəsində Viktor Rıjakovun rəhbərliyi ilə gənc rejissorların vork-şopu, Yuriy Xarikovun rəhbərliyi ilə gənc rəssamların master-klassı, Andrey Moskvinin rəhbərliyi ilə gənc dramaturqların seminarı və Alla Şenderova və Mariya Xalizevanın rəhbərliyi ilə gənc teatrşünasların dəyirmi masası keçirilib.